# Poeziyamızın linqvistik təhlili

Filologiya üzrə fəlsəfə doktoru Günel Mirzəyevanın "Müstəqillik dövrü Azərbaycan poeziyasının dil və üslub xüsusiyyətləri" ("Elm və təhsil", 2022) monoqrafiyası işıq üzü görüb. Nəsimi adına Dilçilik İnstitutunun qərarı ilə çıxan kitaba professor Sayalı Sadıqova ön söz yazıb.

Müəllif giriş yazısında poeziyanın tədqiqində ədəbiyyatşünaslarla yanaşı filosofların, psixoloqların, tarixçilərin, dilçilərin də özünəməxsus yerinin olduğuna diqqəti çəkib, şairlərin yaradıcılığının linqvistik baxımdan təhlilinin aktuallığını əsaslandırır.

"Müstəqillik dövrü Azərbaycan şeirinin dil özəlliyi və ona linqvokulturoloji baxış" adlı ilk fəsildə Günel Mirzəyeva tədqiqat istiqaməti ilə bağlı bir sıra nəzəri mənbələrə müraciət edir, N.Hacıyeva, M.Hüseynov, S.Alməmmədova, A.Cəfərovun bu yöndəki araşdırmalarını diqqətə çəkib, yazır: "Poeziya çağının və həmin çağın yetişdirdiyi şəxsiyyətin inikası olaraq bütünlükdə gələcək nəsil üçün yaradılmış bədii yaddaş kitabçasıdır. Məsələn, Nizami, Nəsimi, Xətai, Füzuli, Vaqif, M.Ə.Sabir, M.Müşfiq kimi şairlərin əsərləri yalnız ruh oxşayan gözəl ədəbi nümunə olmayıb, dövrünün dilini, onun leksik-qrammatik xüsusiyyətlərini, dilin ahəngdarlıq və ifadəetmə imkanlarını üzə çıxaran əsas mənbələrdir. Tarix boyunca yazıb-yaratmaq imkanına sahib olan şairlərimiz, eyni zamanda, ədəbi dilimizin, xüsusilə, bədii üslubun inkişafında, dilin poetik imkanlarının genişlənməsində böyük rol oynamışlar. Şairin fərdi dilinin səviyyəsi onun canlı xalq dilinə nə dərəcdə bələd olması ilə müəyyənləşir. Akad. T.Hacıyevin qeyd etdiyi kimi, "Dil hisslərin, duyğuların, psixologiyanın-bütövlükdə insanın daxili aləminin, onun mənəviyyatının açarıdır. Dil lövhə yaratmaq üçün söz sənətkarın fırçasıdır, söz isə xarakteri, mənəviyyatı tam aydınlığı ilə canlandırmaq üçün onun boyalarıdır". Şair intellektinin məhsulu olan şeir, eyni zamanda, onun xalq dil xəzinəsindən mənimsədiyi söz və ifadələrə verdiyi yeni mənalarla, yaratdığı yeni ifadələrlə dəyər qazanır. Eyni zamanda, şeirin üslubu,onun axıcılığı, yaddaqalma xüsusiyyətləri də onun yazıldığı dilin daxili aləmi ilə bağlıdır. A.Axundovun da yazdığı kimi, "bütün bunlar bədii əsərlərin dili məsələsini sırf bədii yaradıcılıq məsələsi olmaq çərçivəsindən xeyli kənara çıxararaq onu çox böyük ictimai əhəmiyyəti olan bir məsələ edir". Belə ki, ictimai hadisə olan dil vasiəsilə insan təfəkkür və təxəyyülünün məhsulu kimi reallığa çevrilən poeziya sırf dilin ifadə imkanları çərçivəsində dəyər qazanır. Yəni şeirin bütün ifadə və üslub imkanları, ritorikliyi, fikir polifonizmi, ritm və melodiyası sırf dilin mövcud fonetik, leksik-qrammatik imkanları ilə bağlıdır" (s.15-16).

Gətirilən sitatdan görürük ki, Günel Mirzəyeva çox haqlı olaraq linqvopoetik təhlil zamanı poetik nümunələrin yarandığı dilin xüsusiyyətləri ilə bilavasitə bağlı məsələ olduğunu bildirir. Məhz bu məntiqdən düşündükdə, sənətkarın həm də öz xalqının övladı olduğu amilini gözdən qaçırmamaqla tədqiqat aparmağın əhəmiyyəti aydın görünür. Çünki sənətkar xalqının danışan dilidir, görən gözüdür, düşünən beynidir, vuran nəbzidir, döyünən qəlbidir. Yazıçı (şair) dili xalq dilinin ayrılmaz tərkib hissəsidir. Elə linqvopoetik təhlilin də əhəmiyyəti ondan ibarətdir ki, xalqın timsalında şairin yaradıcılığı xalq dilinin zənginliyi baxımından öyrənilir. Bu məqama nəzərən Günel xanım yazır: "Məlumdur ki, hər bir dilin özünəməxsus səs məxrəci, söz daxilində sait və samitin bir-birini izləmə ardıcıllığı, vurğunun söz daxilində mövqeyi və ahəngdarlığa təsir göstərən sözdaxili sinharmonizmi bu dildə yaranan poeziyanın da ritminə, axıcılığına birbaşa təsir göstərir. Əlbəttə, bütün bu xüsusiyyətlər şeirin vəzni və şairin yazı üslubu ilə vəhdət təşkil edir. Dilçilikdə mövcud olan fikirlərə görə, şeir ritmi müxtəlif şeiryaranma sistemi ilə bağlıdır. Belə ki, "antik poeziyaya uzun və qısa hecaların düzgün əvəzlənməsi ilə kəmiyyət sistemi, vurğulu dillərə hecaların daimi sayı ilə sillabik sistem xas olduğu halda, sərbəst vurğulu rus dilinə isə vurğulu və vurğusuz hecaların əvəzlənməsi ilə yuxarıdakı iki sistemin birləşməsindən yaranmış sillabik-tonik sistem xasdır". Sadalanan bu xüsusiyyətlər Azərbaycan şeirində bir qədər fərqli məcrada inkişaf etmişdir. Belə ki, azərbaycandilli poeziya yarandığı gündən sillabik sistemə əsaslanmışdır. Üzü "Kitabi-Dədə Qorqud"-dan bəri Azərbaycan poetik dili vahid sistem üzərində inkişaf etmiş, zamanın tələblərinə uyğun dəyişiklikləri bu sistem tərkibində əridərək spesifik xüsusiyyətlər qazanmışdır. Qədim tarixə malik poetik sistem əsasında, yeni mövzuları və yeni ədəbi istiqamətləri ilə inkişaf edən müstəqillik illəri Azərbaycan şeirinin də özünəməxsus dil strukturu, bədii-üslubi özəllikləri, spesifik xüsusiyyətləri var desək, yanılmarıq.

Poeziya şairin təkcə yaradıcılıq prosesində onu əhatə edən gerçəklik yox, həm də onun özündən əvvəl yaranmış və müasiri olan ədəbi mövzu, forma və şəkillərlə dialoji əlaqəsində bir bütün təşkil edir. Bu dialoji əlaqə nəticəsində şeirdə zaman, mühit, fərdi yaradıcılıq imkanları, janr, üslub fərqləri çərçivəsində yaranan fikir müxtəlifliyi və ziddiyyəti dövrün poetik dilinə spesifiklik qazandırmaqla yanaşı, nəsillər arası bədii yaradıcılıq münasibətlərinin davamlılığını da təmin edir. Müasir Azərbaycan poeziyasını təhlil edərkən, bu davamlılığın günümüzün şairləri tərəfindən yaşadıldığını, tarixi qaynaqlara müraciət edərək, tarixi ənənələrə qayıdış prinsipi əsasında yeni poeziyanın yaradıldığını görmək mümkündür" (s.16-17).

Göründüyü kimi, tədqiqatçı xalq və şair (sənətkar) amilini vəhdətdə gğtürür, canlı orqanizm olan dilin ayrı-ayrı zamanlara müvafiq inkişaf yolu keçdiyini həmin dövrlərin bədii yaradıcılıq nümunələrində də inikas olunduğu göstərilir. Dil həm də təfəkkürlə sıx bağlıdır. Bu mənada təfəkkür sahibləri olan yaradıcı simaların nümunəsində Günel Mirzəyeva müstəqillik dövrü poeziyamızın ayrı-ayrı nümayəndələrinin yaradıcılığına müraciət edir. B.Vahabzadə, X.R.Ulutürk, Dayandur Sevgin, Salam Sarvan, Hamlet İsaxanlı, Dəyanət Osmanlı, Məlahət Yusifqızı, Murad Köhnəqala, Əladdin Dəmirçi, Həmid Herisçi, Zahir Əzəmət, Səlim Babullaoğlu, Zahid Xəlil və başqalarının yaradıcılıq irsini tədqiqə cəlb edən Günel Mirzəyeva onların poeziyasındakı yeni məzmun və yeni deyim üslubu ilə bağlı dəyərli mülahizələrini söyləyir.

Filologiya üzrə fəlsəfə doktoru Günel Mirzəyeva monoqrafiyanın "Müstəqillik dövrü Azərbaycan şeirinin qrammatik xüsusiyyətləri" və "Müstəillik dövrü Azərbaycan şeirinin leksik-semantik, üslubi və frazeoloji xüsusiyyətləri" adlı 2-ci və 3-cü fəsillərdə də uğurlu araşdırmalar aparır, poeziyamızın dil və üslub özəllikləri ilə əlaqəli qiymətli fikirlər nümayiş etdirir. Bədii üslubun təzahür formaları haqqında sistemli fikir söyləyən tədqiqatçı yazır: "Bədii üslub aşağıdakı formalarda təzahür edir; şeir dili, nəsr dili, dramaturgiya dili. Bədii təsvir və ifadə vasitələri bədii üslubda məcazlar adı altında öyrənilir. Dildə obrazlılıq müxtəlif səviyyələrdə özünü göstərir: a) Fonetik səviyyədə obrazlılıq: alliterasiya, assonans, səs və heca təkrarları, emosional intonasiya; b) Leksik səviyyədə obrazlılıq: epitet, təşbeh, mübaliğə, metafora, kinayə, frazeologizm, omonimlik, sinonimlik, antonimlik; c) Qrammatik səviyyədə obrazlılıq daha çox cümlə ilə bağlıdır: inversiya, söz birləşməsi və cümlə tiplərinin təkrarı, qeyri-normativ cümlələr, ellipsis (şəkilçilər və sözlərin buraxılması)" (s.145). Bu nəzəri düşüncələri praktiki baxımdan əsaslandırmaq üçün Günel xanım tədqiqə çəkdiyi dövrə uyğun olaraq müstəqillik illərinin poetik örnəklərindən misallar gətirir, həmin ədəbi nümunələrin timsalında söylədiyi nəzəri fikirlərin isbatını verir.

İnanırıq ki, filologiya üzrə fəlsəfə doktoru Günel Mirzəyeva bir dilçi alim kimi bundan sonra da yeni tipli araşdırmaları ilə dilçilik elminə dəyərli töhfələr verəcəkdir.

***Şakir* Əlifoğlu**

Kredo .-2022.- 14 may.- S.13.